Azərbaycan Arxeologiyası
Khazar University Press
Volume 25 № 1 2023, 8-20
DOI: 10.5782/2218-0346.2023.25.1.8

# Azərbaycanda epiqrafika elminin təşəkkül tarixindən

**Sədaqət Məmmədli**
AMEA Arxeologiya və Antropologiya İnstitutu
sedaqetmemmedli@yandex.com

**Açar sözlər:** Epiqrafika, yazılı abidələr, ərəb, fars və türkdilli kitabələr, Orta əsrlər, XIX əsrin əvvəlləri

Ən qədim insan sivilizasiyalarının bir çoxunda yazı nümunələri üstünlük təşkil etdiyinə görə, epiqrafika elmi bütün dövrlərin ilk qeydlərinin çox hissəsini bərpa etmək üçün əsasdır. Belə ki, o, qədim xalqların həyat və fəaliyyətinin öyrənilməsində və ilkin məlumatların təmin edilərək çatdırılmasında mühüm rola malikdir. Daha dar mənada epiqrafika erkən mədəniyyətlərin yazılı özünü ifadəsinin qalıqları kimi sənədlərin tədqiqidir və görünən işarə sistemlərinin və bu kimi yazı sənətinin inkişafını təsdiqləyən vasitədir.

Azərbaycan xalqının əmək və bacarığı sayəsində ərsəyə gələn sənət nümunələrinin zəngin tarixə malik olduğu alimlər tərəfindən müəyyən dövr ərzində Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində sübut olunub. Belə ki, bu ərazidə yaşayan tayfalar zaman-zaman həyat və məişətdə geniş istifadə olunan orijinal formalı saxsı qablar, məişət qab-qacaqları, toxuculuq alətləri, silah və bəzək əşyaları hazırlayıblar. Məhz həmin maddi-mədəniyyət nümunələri öz orijinallığı - hazırlanma texnikası, bədii tərtibatı, forması ilə fərqlənirdi. Vurğulamaq lazımdır ki, xüsusi ilə nəfis xətt nümunələri ilə işlənən kitabələr həmişə elm və sənət adamlarının diqqətini cəlb edib. Beləliklə də, müəyyən dövrlərdə Azərbaycanda səyahətdə olmuş əcnəbi səyyah, turist, alim və tüccarların öz qeyd və gündəliklərində yazdıqları məlumatlara əsasən demək mümkündür ki, hər zaman böyük marağa səbəb olmuş bu maddi-mədəniyyət nümunələrini dünyanın müxtəlif yerlərindən Azərbaycana gələn turistlər əldə etməyə çalışmışlar.

Azərbaycanda epiqrafik nümunələrin öyrənilməsi XIX əsrin əvvəllərinə təsadüf edir. Orta əsrlər dövrünü araşdıran bir çox görkəmli alimlərimizin əsərlərində arxeoloji qazıntılardan aşkara çıxarılan materialların istehsal üsulları, təsnifatı, bədii tərtibatı, forması, dulusçuluq sənətinin özəllikləri, istifadə məqsədi, istehsal texnologiyası haqqında geniş məlumatlara rast gəlinir.

Ümumiyyətlə, XIX əsrin 30-cu illərində Qafqazın, o cümlədən, Azərbaycanın İslam epiqrafik abidələrinin öyrənilməsində yerli alimlərlə yanaşı, xarici şərqşünas alimlərin də böyük rolu olmuşdur. Bu şərqşünas alimlərdən Azərbaycanın epiqrafik abidələrini tədqiq etmiş N.V.Xanıkovun, ərəb dilində kufi xətli Gəncə darvazalarının kitabələrinin, həmçinin 1835-1837-ci illərdə Naxçıvanın epiqrafik abidələrinin təhlilini vermiş akademik X.Frenin adını çəkmək olar. Bundan əlavə, Azərbaycanın bir sıra tarixi abidələrinin estampını çıxararaq Sank-Peterburqda geniş bir arxiv yaratmış və Şərq ölkələrinə aid numizmatik materialların təyinatını vermiş akademik B.A.Dorn və İ.A.Bartolomeyi qeyd edə bilərik **(5, səh. 7)**. Qafqazın tarixini özündə əks edirən bir çox əsərin müəllifi olmuş A.L.Yakobson, V.N.Leviatov, V.V.Bartold, P.S.Savelyev, V.V.Qriqoryev, İ.N.Berezin, L.İ. Lavrov, A.A.Kunik və digərləri öz əsərlərində Azərbaycan abidələrinə aid epiqrafik yazıların təhlilini veriblər. XI-XIII əsrlərə aid edilən şirvanlı Şeyx Pir Hüseynin (ölüm tarixi h. 467/1074-75-ci ildə) qəbri ətrafındakı Xanəgahın bədii kaşılarının üzərində nəsx xətti ilə ərəb dilində yazılmış Qurani-Kərimdən hikmətli kəlamların, Xaqani Şirvani və Cəlaləddin Rumiyə məxsus şeirlərin oxunaraq araşdırılmasında müstəsna rolu olmuş şərqşünas-epiqrafist V.A.Kraçkovskayaya görə, xanəgahın öyrənilməsi üç dövrə bölünür: birinci dövr 1858-1861-ci illər - B.A.Dorn, İ.A.Bartolomey və N.V.Xanıkov Qafqazda və Xəzər sahil boyu ölkələrində hərbi qulluqda olduğu illərdə yerli xalqların adət-ənənəsini, etnoqrafiyasını, tarixi abidələrini öyrənməyə meyilli olublar. Bu dövrdə ilk dəfə Pir Hüseyn xanəgahında olan Bartolomey abidəni dağınıq halda görsə də, xanəgahın al-əlvan kaşı bəzəkləri onu heyran etmiş, məscidin Peterburqa köçürülməsini təklif etsə də, Tiflisə köçürülmə haqda qərar verilmişdi, lakin bu qərar da yerinə yetirilməmişdi. İkinci dövr isə 1907-ci ildə Tiflis Qafqazşünaslıq İnstitutunun elmi katibi S.V.Ter-Avetesyanın xanəgahdakı qəsbkarlığı idi. Belə ki, Ter-Avetesyan kompleksin bir neçə kaşısının fotosunu oxumaq üçün V.A.Kraçkovskayaya təqdim etmişdir **(7)**. Lakin Ter-Avetesyanın xahəgahda olduğu müddətdə digər bütün kaşı parçaları yoxa çıxmağa başlamışdı. Belə ki, zamanla onların Avropa muzeylərində olması haqqında fikirlər meydana gəlmişdir. Üçüncü dövr isə 1936-cı ildə burada araşdırma aparmaq üçün təş-kil edilən ekspedisiyanın işi ilə bağlı idi. Belə ki, bu zaman xanəgahda olan bütün kaşı bəzəkləri artıq yox idi **(3, səh. 18)**. Sonralar Azərbaycanın epiqrafçı alimi Məşədixanım Nemət müəllifi olduğu “Azərbaycan pirləri” kitabında həmin kaşıların Sankt-Peterburq Dövlət Ermitajına və Tbilisi İncəsənət Muzeyinə gətirilməsindən yazırdı **(2, səh. 24)**. Onu da qeyd etməliyik ki,

A.A.İvanov, L.T.Gözəlyan, L.M.Melikset-Bekov kimi bir sıra əcnəbi alimlər öz məqalələrində Azərbaycanın Orta əsr epiqrafik nümunələrini “İran və Hindistanın maddi mədəniyyət nümunələri” kimi göstəriblər. **URL - 1**

Aparılmış tədqiqatlar nəticəsində aydın olmuşdur ki, oxra mürəkkəbi ilə yazılmış üstü şirəli kaşı nümunələri məscidin mehrabının divar səthini bəzəmək məqsədi ilə istifadə edilmişdir. Bu kaşı nümunələrinin üzərində olan ornamentlər və ərəb qrafikalı epiqrafik nümunələr Elxanilər dövrü Təbriz şəhəri üçün xarakterikdir. Buna baxmayaraq, məhz Azərbaycan adının çəkilməməsi üçün qərəzli olaraq bu epiqrafik materiallar Ermitaj muzeyində ümumi İran mədəniyyəti nümunəsi kimi qeydə alınmışdır. **URL - 2**

1953-1955-ci illərdə A.L.Yakobson Beyləqanda (Örənqala) aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunmuş materiallar əsasında geniş tədqiqatlar aparıb. O, öz məqalələrində bu haqda ətraflı məlumat verərək Qədim Beyləqandan tapılan müxtəlif forma və ölçüdə şirli qab nümunələrinin üzərində həkk olunmuş epiqrafik ornamentlərin Azərbaycan xalqının bədii mədəniyyətinin, ölkədə sənətkarlığın, xalq yaradıcılığının əsas göstəricisi olduğunu vurğulamışdır (**8, səh. 228-302**). Bundan əlavə, V.İ.Leviatov “Qədim Gəncənin saxsı qabları” adlı braşurasında Gəncə, Örənqala və Şabran ərazisindən aşkarlanmış saxsı qab nümunələrindən bəhs etmiş, Orta əsr Azərbaycan keramika istehsalı mədəniyyətinin yüksək olması haqda geniş məlumatlar vermişdir **(9, səh. 18-19)**. **(şəkil 1,2,3,4,5,6,7)**

Epiqrafik abidələr sırasında Azərbaycanın müxtəlif bölgələrindəki yerli ustaların isimləri həkk olunan abidələr də xüsusi yer tutur. Bu dulus məmulatları Azərbaycan tarixinin maddi-mədəniyyətinin ən dəyərli nümunələri hesab olunur. Qeyd etmək lazımdır ki, bu maddi-mədəniyyət nümunələri onların hazırlanma texnikasından, istehsal olunduğu məkandan, tarixindən, ustaların adlarından olduqca zəngin məlumat verir. Haqqında danışılan maddi-mədəniyyət abidələrin böyük bir qismi hal-hazırda Milli Azərbaycan Tarixi Muzeyinin (Arxeologiya və Etnoqrafiya) fondlarında, Azərbaycan Milli İncəsənət Muzeyinin Arxeoloji fondunda və bölgə diyarşünaslıq muzeylərində qorunur.

Azərbaycanın müxtəlif bölgələrindən olan mahir sənətkarların yaratdıqları nadir maddi-mədəniyyət nümunələri bu gün də Parisin Lüvr, Moskvanın Şərq Xalqları və Dövlət Tarix Muzeyində, Sankt-Peterburqda Dövlət Ermitajında, Londonun Viktoriya və Albert, Nyu-Yorkun Metropoliten, Budapeşt Şərq İncəsənəti və Dekorativ Sənətlər Muzeyində, Bonn Xalça Salonu və Münhen Tekstil Muzeyində, Bern Tarix və Xalça muzeylərində, Cenevrə

Keramika Muzeyində, İstanbulun Topqapı Sarayı və Əsgəri Muzeyində, Tehranın Arxeloji, Gülüstan və Xalça Muzeyində, Gürcüstan Dövlət Tarix Muzeyi və Milli İncəsənət Muzeyi və digər xarici ölkə muzeylərində mühafizə olunur.

Azərbaycanın epiqrafik abidələrinin araşdırılmasında xüsusilə ilk qadın epiqrafçı-alim Məşədixanım Nemətin adını qeyd etmək lazımdır. Məşədixanım Nemətin Azərbaycan ərazisində apardığı tədqiqatların nəticəsi olaraq, XVII-XIX əsrlərə aid mis qablar, silahlar, bayraqlar üzərindəki ərəb-fars-türkdilli kitabələrə həsr olunmuş VI cilddə “Azərbaycanın epiqrafik abidələri toplusu” adlı əsəri epiqrafik abidələrin öyrənilməsi sahəsində mühüm əhəmiyyətə malikdir **(4, səh. 142)**.

Son dövrlərdə Azərbaycanın müxtəlif ərazilərində aparılmış arxeoloji qazıntı işləri zamanı bir sıra epiqrafik abidələr də aşkar edilərək tədqiqata cəlb olunmuşdur. Qeyd edək ki, Azərbaycan Respublikasının müxtəlif bölgələrində epiqrafik abidələrin gələcəkdə araşdırılması zəruridir. Tarixin daş yaddaşında gizlənən sirlərin aşkara çıxarılmasında həmin abidələr əvəzolunmaz şahidlərdir. Ümumiyyətlə, Azərbaycan tarixinin mühüm məsələlərindən biri olan sənətkarlığın tədqiqi cəmiyyətin inkişafının müxtəlif pillələrində məhsuldar qüvvələrin və istehsal münasibətlərinin vəziyyətini müəyyənləşdirməkdə böyük əhəmiyyətə malikdir. Ən qədim köklərə malik və ən kütləvi sənət sahələrindən biri olan dulusçuluğun bu məsələlərin təhlilində köməyi daha böyükdür. Bu cəhətdən İlk orta əsrlər dövründə dulusçuluğun vəziyyətinin öyrənilməsi daha maraqlı nəticələr çıxarmağa imkan verir.

Azərbaycanda arxeoloji tədqiqatlar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələri içərisində saxsı məmulatının üstünlük təşkil etməsi, lusçuluğun insan həyatında rolu ilə əlaqədar olaraq keramikanın tədqiqi və Azərbaycanda Orta əsr dulus məmulatı üzərində epiqrafik nümunələrin təkamülü aktual məsələlərdəndir. Orta əsr saxsı məmulatının tədqiqi də bu baxımdan xüsusi vurğulanmalıdır. Məlum olduğu kimi, Orta əsrlər arxeoloji mədəni təbəqələrin tədqiqi və təhlili ilə bilavasitə əlaqəli şəkildə Erkən, Klassik və Son orta əsrlərə bölünərək təsnifatlandırılır. Həmin mərhələlərin hər birinin ayrı-ay-rılıqda sistemli tədqiqi xüsusi önəm daşıyır. Müxtəlif şəhər yerləri, şəhərtipli və kəndtipli yaşayış yerləri, qəbir abidələri, qala və istehkamlarda aparılmış arxeoloji qazıntı işləri zamanı aşkar olunmuş müxtəlif təyinatlı dulus məmulatının tədqiqi həm də dulusçuluq sənətinin öyrənilməsi üçün də zəruridir. Bəzi hallarda dulus məmulatı üzərində təsvirlərə, işarələrə və yazı nümunələrinə rast gəlinməsi isə digər maraqlı məsələlərdəndir.

**Nəticə.** Azərbaycan ərazisində zaman-zaman həyata keçirilən arxeoloji araşdırmalar tarixin müəyyən dövrlərinə məxsus mühüm maddi-mədəniyyət nümunələrinin aşkara çıxarılması ilə nəticələnmişdir. Araşdırmalar göstərir ki, bu maddi-mədəniyyət nümunələrinin böyük bir qismini Azərbaycan tarixinin öyrənilməsində xüsusi rola malik olan, fərqli materiallar üzərində müxtəlif dövrlərdə, müxtəlif xəttatlar tərəfindən ərsəyə gətirilmiş epiqrafik abidələr təşkil edir. Fərqli əlifbalarda yazılmış yazılı kitabələrin oxunması və izahı qədim dövrdən bəri tariximizin dərindən və hərtərəfli öyrənilməsində böyük önəm daşıyır. Buna görə də vurğulamaq lazımdır ki, Azərbaycanın bir sıra bölgələrində hələ də tədqiqata ehtiyacı olan epiqrafik nümunələr vardır. Onların da ayrıca elmi tədqiqata cəlb edilməsi xüsusi əhəmiyyətə malikdir. Gələcək tədqiqat işlərinin həmin nümunələrin də tam şəkildə öyrənilməsinə şərait yaradacağına inanırıq.

## Ədəbiyyat

1. Nemətova M.S. Azərbaycanda sufi xanəgahlar // Azərbaycan İRS jurnalı. 2000. № 6-7. s. 32-35.
2. Nemətova M.S. Azərbaycanda pirlər. Bakı. 1992. s. 99
3. Nemətova M.S. Pir Hüseyn və Şeyx Xorasan xanəgahları/ Elm və həyat jurnalı. 1991. s. 16-20.
4. М.С.Немат. Корпус эпиграфических памятников Азербайджана. Том IV. Арабо-персо-тюркоязычные надписи Куба-Хачмазской зоны и Южного Дагестана (VIII- начало XX вв.). Баку. «Нурлан», 2008. – 168 с.
5. Əliyeva H.M. Azərbaycanda Orta Əsrlərə aid metal əşyalar üzərində ərəb - fars - türkdilli kitabələr. Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı. 2013. s. 28
6. Həbibə Əliyeva, Fariz Xəlilli. Basqal epiqrafikası. I kitab-albom. Bakı. Elm və təhsil, 2019, s. 56
7. Крачковская В. А. Избразцы мавзолея Пир Хусейна. Тбилиси, 1946.
8. А.Л.Якобсон. «Художественная Керамика Байлакана (Орен-Кала)» // Материалы и исследования по археологии СССР. №67, 1959. с. 228-302
9. В.Н.Левиатов. «Керамика старой Ганджи» // Баку. АЗФАН.1940, с.46

## İnternet resursu

URL - 1 https://www.hermitagemuseum.org

URL – 2 https://www.hermitagemuseum.org/wps/portal/hermitage/digital-collection/10.+porcelain%2c+faience%2c+ceramics/114687

**Summary**

## About the history of the formation of the science of epigraphy in Azerbaijan

**Sadagat Mammadli**

The role of epigraphic monuments in the study of several issues in the history of Azerbaijan is special. From this point of view, it is necessary to study medieval Islamic monuments. On epigraphic monuments, texts are written in the Arabic alphabet, memoirs, prayers, verses, dates and the name of the person are found, mainly in Arabic, Turkish and Persian. In Azerbaijan, in the XVIII-XIX centuries, the first attempts were made to read epigraphic monuments. In the XX century, it has become more systematic. In this regard, M.Nemat's research should be specially noted. The study of epigraphic monuments in modern times is also a topical issue. There are many examples of medieval epigraphic monuments in different regions of Azerbaijan. It is necessary to conduct scientific research among them in the future.
**Keywords:** epigraphy, written monuments, Arabic, Persian and Turkic inscriptions, Middle Ages, early XIX century

**Резюме**

## Об истории становления науки эпиграфики в Азербайджане

**Садакат Мамедли**

Роль эпиграфических памятников в изучении ряда вопросов истории Азербайджана особенная. С этой точки зрения необходимо изучение средневековых исламских памятников. На эпиграфических па-мятниках тексты написаны арабским алфавитом, встречаются памятные мемуары, молитвы, стихи, даты и имена людей преимущественно на арабском, турецком и персидском языках. В Азербайджане в XVIII-XIX веках были предприняты первые попытки прочтения эпиграфических памятников. В XX веке оно стало более систематическим. В этой связи следует особо отметить исследования М.Немата. Изучение эпиграфических памятников в современное время также является актуальным вопросом. В различных регионах Азербайджана имеется множество примеров средневековых эпиграфических памятников. В будущем необходимо провести среди них научные исследования.
**Ключевые слова:** эпиграфика, письменные памятники, арабские, персидские и тюркские надписи, средневековье, начало XIX века.





**Şəkil 1.** (Örənqala) **Şəkil 2.** (Örənqala)





**Şəkil 3.** (Örənqala) **Şəkil 4.** (Örənqala)







**Şəkil 5.** (Gəncə) **Şəkil 6.** (Gəncə) **Şəkil 7.** (Gəncə)